**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HÜSEYN ABBASZADƏNİN BƏDİİ NƏSRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

**İddiaçı: Aygün Eyyub qızı Heydərova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**Bakı-2022**

**Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.**

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor
**Tehran Əlişan oğlu Mustafayev**

filologiya elmləri doktoru, professor
**Fəridə Ramiz qızı Səfiyeva**

filologiya üzrə fəlsəfə doktoru
**Samirə Məhəmməd qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Leyla Kamran qızı Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Uzun və tarixi bir yol keçmiş Azərbaycan ədəbiyyatı yarandığı gündən bəşəri ideyaları, milli-mənəvi dəyərləri, adət-ənənəsi və bədii-estetik qayəsi ilə tanınır. Bu ədəbiyyatı yaradanlar humanizm, ədalət, həmrəylik, xeyirxahlıqla bərabər mənsub olduqları xalqın tarixi keçmişinə, qəhrəmanlarına, yaşadığı olaylara da biganə qalmamışlar. Ədəbiyyat tarixinin hər mərhələsində, hər dövründə özəllikləri ilə səciyyələnmiş sənətkarlar öz sözlərini deməyə səy göstərmişlər.

Belə sənətkarlardan biri də Hüseyn Abbaszadədir. Onun həyat və yaradıcılıq yolu həm sovet dövrü Azərbaycan ədəbiyyatını, həm də müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ilkin mərhələsini əhatə edir.

Azərbaycan ədəbiyyatı tarixi inkişaf baxımından müxtəlif mərhələlərdən keçmişdir. Bu mərhələlər içərisində 1920-1991-ci illəri əhatə edən sovet dövrü Azərbaycan ədəbiyyatı öz mürəkkəbliyi ilə diqqəti cəlb edir.

1940-cı illərdə nəzmlə yaradıcılığa başlamış H.Abbaszadə 1950-ci illərdə epik növün imkanlarının daha geniş olduğunu duyduğundan nəsrə keçmiş və müxtəlif mövzulu hekayə, povest və romanlar yazaraq Azərbaycan bədii nəsrini zənginləşdirmişdir. Onun yaradıcılığında Böyük Vətən müharibəsi, dinc quruculuq, Birinci Qarabağ müharibəsi, keçid və müstəqillik dövrünün gətirdiyi mövzular bədii ustalıqla işlənmişdir. Zəngin yaradıcılığa malik H.Abbaszadə yalnız öz ədəbiyyatımızın nümayəndələrindən deyil, dünya ədəbiyyatının nümayəndələrindən də bəhrələnmişdir. H.Abbaszadənin bədii nəsri hansı dövrü əhatə etməsindən asılı olmayaraq real həyatla birbaşa bağlıdır. Onun əsərlərində ictimai, qlobal, siyasi, iqtisadi, milli, mənəvi problemlər öz əksini tapmışdır.

Yazıçı əsərlərində insana, müxtəlif problemlərə fərqli aspektdən yanaşır, bu cəhət də onun bədii nəsrinin təhlilini zəruri və əhəmiyyətli edir. Onun bədii nəsrində insan, onun mənəvi dünyası lirik-psixoloji baxımdan da bədii həllini tapır. Yaradıcılığının əsas

xəttini təşkil edən insan konsepsiyasında H.Abbaszadə insana birxətli yanaşmır, onu daxili məni və ətraf mühit daxilində təhlil edir.

H.Abbaszadə bədii nəsr nümunələrində, memuar və publisistik yazılarında dövrün, mühitin mənzərəsini yaradır, insanların məişətini, fəaliyyətini, hisslərini təsvir edirdi. O, əsərlərində xalqın həyatına yer verməklə yanaşı, vətən və millətlə bağlı fikirlərini də ifadə etməyi bacarırdı. Bədii nəsrinin böyük bir hissəsi sovet dövrünə təsadüf etdiyindən əsərlərində dövrün tendensiyası ilə bağlı sosial-siyasi baxışlar aydın şəkildə özünü göstərir. Lakin bu H.Abbaszadənin bədii nəsrində milli düşüncənin irəliləyən xətt üzrə inkişafına mane olmur. İstər sovet, istər müstəqillik dövründə yazdığı əsərlərdə milli kimlik, milli yaddaş problemlərinə toxunması, milli ideologiyaya, milli-mental dəyərlərə sahib obrazlar qalereyasını yaratması, milli sənətkar mövqeyini ortaya qoması olduqca əhəmiyyətlidir.

Bütün bunlarla bağlı faktlar dissertasiyada H.Abbaszadənin əsərlərindən gətirilmiş nümunələrdə öz əksini tapmışdır. Məhz bu kimi məsələlərə toxunulması da, mövzunun aktuallığına dəlalət edən səbəblərdəndir.

Çoxçeşidli və çoxkəmiyyətli H.Abbaszadə yaradıcılığına istər sovet dövründə, istər müstəqillik dövründə müraciət edilmişdir. Yəhya Seyidov "Müasirlik yazıçının devizidir" (1968), "Müasirlik duyğusu" (1971), Hidayət Əfəndiyev "Tükənməz ilham çeşməsi" (1970), Məmməd Rahim "Maraqlı əsər" (1971), Bəkir Nəbiyev "Böyük sərkərdənin bədii surəti" (1971), "Böyük Vətən müharibəsində Azərbaycan ədəbiyyatı" (monoqrafiya, 1977), Süleyman Rəhimov "Əlvanlıq uğrunda" (1971), İ.Tretyakov "Urok drujbı" (1976), M.Xolmoqorov "Poziçiya soldata" (1976), S.Lukyanov "Nravsvennaya aktivnost qeroya" (1976), V.Boquslavski "Obyatı pafosom vospitaniya" (1977), A.Sofranov "Nravstvennıy vzqlyad pisatelya" (1978), Y.Lukin "Sovremennost diktuet temu" (1979), İ.Şıxlı "Müharibə və insan" (1980), M.Pleskaçevski "Qrani bolşoqo talanta" (1982), Ləziz Kayumov "Müasirlik duyğusu" (1982), Məmməd Cəfər Cəfərov "Ürəkaçan əsərlər, səslər" (1982), Akif Hüseynov "Taleyə çevrilən illər" (1982),

Bəxtiyar Vahabzadə "Xahiş"in bəlası" (açıq məktub; 1982), Süleyman Rüstəm "Şairin nasir haqqında sözü" (1982), Y.Loxviçki "Qrani sudeb ludskix" (1983), Kamal Abdulla "Ötən illərin mənası" (1983), Vaqif Yusifli "Çəmbərəkənd balladası" (1983), Rəhim Əliyev "Ömrün sınaqları" (1985), Zaman Əsgərli "Təmizliyin təntənəsi" (1985), Tofiq Hacıyev "Nəsrin böyük rütbəli sənətkarı" (2002), Dəyanət Bayramov "Nəsrimizin "general"ı" (2002), Hacı Ağəddin Mansurzadə "Sənətkar xoşbəxliyi" (kitab; 2007), Vaqif Yusifli "Bizim Hüseyn müəllim" (2007), "Altmış beş il ədəbi aləmdə" (2012), "Yada düşür xatirələr" (2017), Təranə Məhərrəmova "Ədəbiyyatın ağsaqqalı" (2010), Məhəmməd Nərimanoğlu "General"la qazanılan şöhrət" (2012) adlı məqalələr yazmışlar. Lakin çoxu sovet dövrünə aid olan bu yazılarda, təbii olaraq, yazıçının bədii nəsri dövrün tələbləri çərçivəsində təhlil edilmişdir. Müstəqillik dövründəkilərin əksəriyyəti isə (istisna: Tofiq Hacıyev, Vaqif Yusifli, Hacı Ağəddin Mansurzadə) xatirə xarakterli olub, H.Abbaszadənin bədii nəsrinin təhlilinə yer ayrılmamışdır. H.Abbaszadənin bədii nəsrinin mövzu dairəsi, sənətinin bədii-estetik mahiyyəti, sənətkarlıq xüsusiyyətlərinin müəyyənləşdirilməsi baxımından yazılan ilk tədqiqat işi təqdim etdiyimiz dissertasiyadır.

**Tədqiqatın obyekti və predmeti.** H.Abbaszadənin bədii nəsri dissertasiya işinin obyektini, yaradıcılığının mövzu dairəsi, sənətinin bədii-estetik mahiyyəti isə tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** 1950-ci illərdə bədii nəsr yaradıcılığına başlamış H.Abbaszadə 2005-ci ilə kimi müxtəlif məzmunlu əsərlər yazmışdır. İki – sovet və müstəqillik dövründə yaşamış yazıçının yaradıcılığının çağdaş prizmadan, ideoloji təsirdən uzaq araşdırmaq, bədii nəsrinin elmi-nəzəri şərhini vermək, özünəməxsus xüsusiyyətlərini, əsas tendensiyalarını üzə çıxarmaq, bitkin elmi təsəvvür əldə etmək tədqiqatın məqsədini təşkil edir. Bu məqsədə nail olmaq üçün aşağıda qeyd olunan vəzifələr nəzərdə tutulmuşdur:

– H.Abbaszadənin həyatı və ədəbi-ictimai fəaliyyətini zaman və mühit konteksində araşdırmaq;

- H.Abbaszadə yaradıcılığında bədii nəsr və ədəbi tənqid məsələlərinə diqqət ayırmaq;
- H.Abbaszadənin bədii yaradıcılıq yolunu sovet və müstəqillik dövrü mərhələləri üzrə izləmək;
- H.Abbaszadə yaradıcılığının mövzu dairəsini müəyyənləşdirmək;
- Əsərlərinin ideya-bədii sənətkarlıq xüsusiyyətlərini təhlil etmək;
- H.Abbaszadənin yaradıcılıq kredosunun bədii-estetik mahiyyətini üzə çıxarmaq;
- Dövrlə əlaqəli olaraq ideoloji qüsur və nöqsanlandan doğan formalizmin H.Abbaszadə bədii nəsrinə təsirini aşkarlamaq;
- H.Abbaszadə bədii nəsrinin ana xəttini təşkil edən insan konsepsiyasını müxtəlif aspektlərdən araşdırmaq;
- H.Abbaszadə bədii nəsrində mövcud sosial-psixoloji, mənəvi-əxlaqi problemləri nəzərdən keçirmək;
- H.Abbaszadə yaradıcılığını obraz və xarakter problemləri daxilində təhlil etmək;
- H.Abbaszadə nəsrindəki mövzu və bədii konflikt məsələlərini araşdırmaq;
- Tədqiqatın sonunda alınan nəticələri ümumiləşdirmək.

**Tədqiqat metodları.** Dissertasiyada tarixilik prinsipi və sistemli təhlil üsulu əsas götürülmüşdür. Tədqiqat işində mövzu ilə bağlı filoloji fikrin nəzəri-elmi nailiyyətlərinə, ədəbiyyatşünaslığın təcrübəsinə istinad edilmişdir. H.Abbaszadənin bədii nəsri ədəbi-estetik fikrin əsas qanunauyğunluqlarına uyğun, tarixi-müqayisəli təhlil metodundan istifadə edilərək araşdırılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Bu günə kimi H.Abbaszadə şəxsiyyəti, yaradıcılığı, bədii nəsri ilə bağlı araşdırmalar, əsasən, fraqmental səciyyə daşıdığından təqdim edilən dissertasiyada yazıçının şəxsiyyəti, həyat yolu və bədii nəsri kompleks halda tədqiq olunur.

2. H.Abbaszadənin bədii nəsri həm sovet, həm də müstəqillik dövrü nəsrimizin xüsusiyyətlərini özündə əks etdirməsinə görə iki yerə bölünür.
3. Ədəbiyyatşünaslıq və ədəbi tənqid sovet dövründə sosialist realizmi prinsipinə əsaslandığından H.Abbaszadənin bədii nəsri birtərəfli qiymətləndirilmişdir. Buna görə də yazıçının həmin dövrdə yazdığı bədii nəsr nümunələri müstəqillik illərinin meyarlarına uyğun təhlilə cəlb edilir.
4. H.Abbaszadənin bədii nəsrində insan, onun mənəvi dünyası, mənəvi-əxlaqi axtarışları, hadisələrin lirik-psixoloji təhlili bədii həllini tapır.
5. H.Abbaszadə bədii nəsrində cəmiyyəti maraqlandıran mühüm sosial-siyasi, ictimai-siyasi məsələləri bədii şəkildə təcəssüm etdirərək cəmiyyəti məhvə aparan bürokratizmi, rüşvətxorluğu, ədalətsizliyi istər açıq, istər qapalı formada təqdim edir.
6. H.Abbaszadənin bədii nəsri millilik, milli-mənəvi dəyərlərin təcəssümü baxımından təhlil edilir.
7. Müxtəlif mövzuları özündə birləşdirən H.Abbaszadənin bədii nəsri mövzu və quruluşca bir-birini təkrarlamayaraq standart karakter daşımır. Bitkin forma xüsusiyyətlərinə malik bədii əsərlərdə dil və üslub sadəliyi, aydınlığı aparıcıdır.

**Tədqiqatın elmi yeniliyi.** H.Abbaszadə yaradıcılığı bu günə kimi ətraflı şəkildə araşdırılmamışdır. Bu mənada H.Abbaszadənin bədii nəsrinin ilk dəfə ədəbiyyatşünaslıq tələbləri daxilində sistemli olaraq elmi-tədqiqat müstəvisinə gətirilməsi dissertasiyanın elmi yeniliyi kimi qiymətləndirilə bilər. Tədqiqatda yazıçının bədii nəsri yalnız mövzu və ideya baxımından deyil, dil-üslub baxımından da təhlil müstəvisinə gətirilmişdir. H.Abbaszadə şəxsiyyətinə, yaradıcılığına, xüsusilə bədii nəsrinə dövrün tələbləri, prinsipləri nəzərə alınmaqla müqayisəli şəkildə münasibət bildirilmişdir. Yazıçının bədii nəsri ədəbiyyatşünaslıq təhlili ilə yanaşı, ideoloji təsirdən uzaq şəkildə tədqiq edilmiş, hekayələrindən tutmuş romanlarınadək əsərlərinin məna tutumunun müəyyənləşdirilməsinə cəhd edilmişdir. Sovet və müstəqillik dövründə yazdığı bədii nəsr

nümunələri mənəvi-əxlaqi, sosial-psixoloji problemlər baxımından araşdırılmış, onların bədii həlli elmi şəkildə ümumiləşdirilmişdir.

Tədqiqata cəlb edilən əsərlərdə insan konsepsiyası, insanın daxili aləmi, hissləri mühitlə, məişətlə qarşılıqlı əlaqədə siyasi, sosial, etik münasibətlər baxımından araşdırılır. Bu əsərlərdəki yazıçı mövqeyinin, avtobioqrafik məqamların müəyyən edilməsi də tədqiqatın elmi yeniliklərindən biri kimi qiymətləndirilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada H.Abbaszadə şəxsiyyətinin və bədii nəsr nümunələrinin indiyədək araşdırmaya cəlb edilməyən məqamlarının geniş şəkildə təhlil edilməsi, avtobioqrafik məqamlarının araşdırılması onların ədəbi-nəzəri tədqiqi baxımından əhəmiyyətlidir.

Araşdırmanın praktik əhəmiyyəti kimi H.Abbaszadə yaradıcılığı ilə maraqlanan elmi ictimaiyyət üçün baza xarakteri daşımasını qeyd etmək olar. Tədqiqatın elmi nəticələrindən ali məktəbin filologiya fakültələlərində, bakalavr, magistratura pillələrində mühazirə və seminarlarda, xüsusi kursların tədrisində, H.Abbaszadə yaradıcılığının gələcək tədqiqatlarında istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları və yekun nəticələri xaricdə (Dağıstan Dövlət Universitetinin "Türkologiya məsələləri", Ukranyanın Dnepropetrovski Universitetinin "Literatura v konteksti kulturı" və NP ODNO İnstitutunun "Baltik humanitar jurnalı" s.), respublikanın müxtəlif elmi jurnallarında ("Filologiya məsələləri", "Pedaqoji Universitet Xəbərləri", Avrasiya Universitetinin "Sivilizasiya", Odlar Yurdu Universitetinin "Elmi və Pedaqoji xəbərləri", Azərbaycan Universitetinin "İpək yolu", BDU-nun "Dil və Ədəbiyyat" və s.) elmi-nəzəri, elmi praktik konfranslarda (Doktorant və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı və s.), beynəlxalq simpoziumlarda (Gənc tədqiqatçıların I və II Beynəlxalq elmi konfransı, III Beynəlxalq Həmzə Nigari Türk Dünyası mədəni irsi simpoziumu, Azərbaycanşünaslığın aktual

problemləri VIII və IX Beynəlxalq elmi konfransı və s.) məqalələr və tezislər şəklində çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu Azərbaycan Dövlət Pedaqoji Universitetinin 26 oktyabr 2016-cı il tarixli iclasında (Protokol №1) və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Filologiya problemləri üzrə Elmi Şurasının 27 oktyabr 2016-cı il tarixli iclasında (Protokol №8) təsdiq olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (10936), I fəsil (54449 işarə), II fəsil (87447 işarə), III fəsil (115612 işarə), nəticə (7297 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı da daxil olmaqla, ümumi həcmi 293014 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqatın metodları göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar təqdim olunur, işin aprobasiyası və tətbiqi, strukturu haqqında məlumat verilir.

Tədqiqatın **"Hüseyn Abbaszadənin həyatı və mühiti"** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. Birinci fəslin **"H.Abbaszadənin həyatı və şəxsiyyəti. Sənətkar və mühit"** adlı birinci paraqrafında H.Abbaszadənin həyatı, onu formalaşdıran mühit, cəmiyyətdə şəxsiyyət kimi yeri, sənətkar kimliyi, mühitin H.Abbaszadəyə, H.Abbaszadənin mühitə təsiri məsələlərinə toxunulur.

H.Abbaszadə 1922-ci il noyabrın 22-də Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini Yasamal (o vaxtkı Oktyabr) rayonundakı 136 nömrəli məktəbdə almışdır. Məşhur ədəbiyyatşünas

alim Əkrəm Cəfərin qardaşı Cəfər İbrahim H.Abbaszadənin orta məktəbdə ədəbiyyat müəllimi olmuşdu. Ədəbiyyata, teatra olan sevgisinin, marağının özülü də buradan gəlir.

30-cu illərdə respublikada müxtəlif ədəbi dərnəklər fəaliyyət göstərirdi. O, şair İsmayıl Soltanın rəhbərlik etdiyi Bakı Pionerlər Evindəki ədəbiyyat dərnəyinə yazılır. O zamanlar bu dərnəyin üzvləri arasında Bəxtiyar Vahabzadə, Teymur Elçin, Salam Qədirzadə, Qabil, Şıxəli Qurbanov da var idi.

Böyük Vətən müharibəsi H.Abbaszadənin həyatında yeni səhifə açır. H.Abbaszadə 1941-ci ildə Bakıdan 50 nəfərdən çox gənclə birlikdə Gürcüstanın Tetri-Skaro kəndindəki alay rabitə məktəbinə oxumağa göndərirlər. 1945-ci il aprelin 11-də "Yunkers"lərin onların dəstəsinə qəfil hücumu nəticəsində o, ağır yaralanır. Birinci dəfə 1943-cü ildə yaralanan ("İntiqam" şeiri) H.Abbaszadə bu dəfə aldığı zədədən II qrup əlil olur.

Müharibədən sonra Yusif Əzimzadənin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinə yazılması onun üçün yeni bir başlanğıc olur. O, burada "qardaş" adlandırdığı "vəfa dostu" Adil Babayevlə tanış olur. Çox çəkmir ki, onun köməyi ilə "Kommunist" qəzetində ədəbi işçi olaraq çalışmağa başlayır. Həmin dövrdə qəzetdə Əli Vəliyev, Nəsir İmamquliyev, Hidayət Bağırov, Rza Şahvələd, Vəli Hacıoğlu kimi təcrübəli mətbuat işçiləri çalışırdılar, onlarla çiyin-çiyinə çalışmaq H.Abbaszadə üçün əvəzsiz bir məktəb olur.

1945-ci ilin payızında H.Abbaszadə Musa Musayevin direktoru olduğu Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) teatrşünaslıq fakültəsinə daxil olur. İnstitutda Əli Sultanlı, Sabit Rəhman, Həbib İsmayılov, Ağabəy İsrafilbəyli, Aleksandr Mudrov kimi müəllimlərdən dərs alır.

1948-ci ildən H.Abbaszadə Əhməd Cəmilin köməyi ilə "Pioner" jurnalının ədəbiyyat şöbəsinə müdir təyin olunmuş, daha sonra məsul katib vəzifəsini icra etmişdir. 1958-ci ildə o, Yusif Əzimzadənin redaktorluğu ilə nəşr olunan "Göyərçin" jurnalında məsul katib kimi çalışmağa başlayır.

1966-71-ci illərdə T.Hacıyevin təbirincə desək, *"H.Abbaszadə "Ədəbiyyat və incəsənət" qəzetində də döyüşçü kimi redaktorluq etdi. Sovet imperiya senzurasının Demokl qılıncının altında azərbaycançılıq ideyası onun qəzetində bəhrə verirdi".*[1]

1972-ci ildə H.Abbaszadə yenidən "Göyərçin" jurnalının redaksiyasına qayıdır və 1975-ci ilə kimi baş redaktor vəzifəsini icra edir.[2]

H.Abbaszadə Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm, Ənvər Məmmədxanlı, Qabil, Cabir Novruz, Süleyman Rəhimov, Səməd Vurğun, İsmayıl Şıxlı, Yusif Əzimzadə, Salam Qədirzadə, Adil Babayev və digər ədiblərlə tanışlıq və dostluq münasibətində olmuş, onların xatirələrində və yaddaşlarda gözəl insan, səmimi yoldaş kimi qalmışdır.

"Dünyadan gör necə insanlar gedib..." və "Nurdan yoğrulmuşlar" kitablarında toplanan xatirələr yazıçının özü ilə bərabər o dövrün görkəmli simaları barədə də ətraflı məlumat verir. Vaqif Yusiflinin də qeyd etdiyi kimi, *"Sovet dövründə İ.Əfəndiyevin, Qılman İlkinin, Anarın, Sabir Rüstəmxanlı və H.Abbaszadənin xatirə yazıları ilə başlayan memuar ədəbiyyatı"*[3] vardı. Bu xatirələrdə biz onun hadisələrə münasibətini, yanaşmasını aydın şəkildə görürük. Təəssüflər olsun ki, H.Abbaszadənin memuarist kimliyi kölgədə qalmışdır.[4]

H.Abbaszadə istər öz qələmindən çıxan sətirlərdə, istərsə də dostlarının, incəsənət xadimlərinin xatirələrində ləyaqətli, vicdanlı, vətənini sevən şəxsiyyət kimi canlanır.

1991-ci ildən əmək fəaliyyətinə son qoyan yazıçı 2005-ci ilə qədər müxtəlif əsərləri, publisistik yazıları ilə mətbuatda çıxış edir.

---

[1] Abbaszadə, H.A. Seçilmiş əsərləri: [2 clddə] / H.A.Abbaszadə. – Bakı: Şərq-Qərb, – c. 1. – 2006. –s. 5

[2] Heydərova, A.E. Hüseyn Abbaszadənin həyatı və şəxsiyyəti // – Bakı: BDU-nun "Dil və ədəbiyyat" jurnalı, – 2019. № 3, s. 210-213

[3] Yusifli, V.Ə. Yada düşür xatirələr / Kaspi. – 2017, 1 iyul. – s. 19

[4] Heydərova, A.E. Hüseyn Abbaszadənin yaradıcılığında memuar janrı // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı, – Bakı: ADPU, – 22-23 noyabr, – 2018, – s. 152-155

Bütün ömrünü işdə, ədəbi mühitdə, sosial həyatda aktiv keçirən Hüseyn müəllimə qarşı ömrünün son günləri vəfalı olmur: *"Mən qəlbi, nəfsi tox insanam. Heç kimdən heç nə ummuram, heç kimdə, heç nədə gözüm yox, heç kimin də yolunu gözləmirəm. Danmıram, amma dostlarımın zəngində gözüm var. Axı telefon nə qədər istirahət edər, susar, lal-dinməz qalar?"*[5]

H.Abbaszadə 2007-ci il dekabrın 12-də Bakıda vəfat etmiş, İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Nəticə olaraq H.Abbaszadənin həyat və yaradıcılığına nəzər saldıqda, onun şəxsiyyət və sənətkar kimi formalaşmasında yaşadığı mühitin təsiri aydın şəkildə görünür. Çünki insanın şəxsiyyət kimi formalaşmasında bioloji amillərlə yanaşı, sosial amillərin də xüsusi rolu vardır. İnsan şəxsiyyət olaraq doğulmur, şəxsiyyət kimi formalaşır. H.Abbaszadə də yaşadığı mühitdə öyrəndiklərindən, müşahidə etdiklərindən nəticə çıxararaq özünə bir yol müəyyən etmişdi. Qürurvericidir ki, ona bu yolu təmiz vicdanla, təmiz adla addımlamaq nəsib oldu. Hər bir insan bu həyatdan gedəndə özündən sonra yaxşı və ya pis mənada nələrsə qoyub gedir. H.Abbaszadə isə təmiz adla yanaşı, onu həmişə əbədiyaşar edəcək əsərlər qoyub getdi.

Birinci fəslin **"H.Abbaszadənin bədii irsi və ədəbi tənqid"** adlı ikinci paraqrafında H.Abbaszadənin yaradıcılıq yoluna, bədii irsinə və bu irsin ədəbi tənqiddə işlənmə dərəcəsinə diqqət yönəldilib.

H.Abbaszadə qələmini lirik, epik, dramatik janrlarda sınamışdır. Bununla kifayətlənməyən H.Abbaszadənin dövri mətbuatda yayımlanmış publisistik yazıları, rus və başqa xalqların ədəbiyyatlarından etdiyi bədii tərcümələri də mövcuddur.

H.Abbaszadənin bədii ədəbiyyata gəlməsində Böyük Vətən müharibəsinin rolu danılmazdır. Belə təlatümlü zamanda H.Abbaszadənin hisslərini ifadə etmək üçün poeziyanı seçməsi təsadüfi deyildi. 1949-cu ildə o, ilk şeir kitabı – "Sınaq illəri"ni,

---

[5] Mansurzadə, A.M. Sənətkar xoşbəxtliyi / A.M.Mansurzadə. – Bakı: Adiloğlu, – 2007. – s. 105

1951-ci ildə “Yaşıl küçə”, 1954-cü ildə “Silah yoldaşları” şeir kitablarını nəşr etdirir.

Sovet dövründə poema janrı olduqca populyar idi. H.Abbaszadə “İnadkar oğlan”, “Silah yoldaşları” (1947-1948), “Həcər” (1953), “Doğma yuva” (1955), “Ağaran çadırlar” (1956), “Aran” (1959) kimi poemalarını yazır.

H.Abbaszadə şeirə, poeziyaya vurğun olduğu kimi, musiqinin də aşiqi idi. Təsadüfi deyildir ki, o, 60-a qədər mahnı mətninin müəllifi olmuş, bu mahnı-şeirlərə A.Rzayeva, S.Rüstəmov, Q.Hüseynli, Ş.Axundova və b. kimi bəstəkarlar tərəfindən ahəngdar, şux musiqilər bəstələnmişdir.

Təkcə ədəbiyyat deyil, tərcüməçilik, kino onun maraq dairəsində olan sahələrdən idi. H.Abbaszadə rus ədəbiyyatı klassiklərinin əsərləri ilə yaxından tanış olmuş, xüsusilə uşaq ədəbiyyatı nümunələrini (S.V.Mixalkov “Dostumla birlikdə” (1956), Z.N.Aleksandrova “Bir ulduzdan beş nəfər” (1962), X.Trayanov “Qızıl gül əfsanəsi” (1966, 1968), S.Y.Marşak “Birdən ona qədər” (1973), N.A.Nekrasov “Mazay baba və dovşanlar” (1985) sevərək dilimizə tərcümə etmişdir.

Onun “Dənizə çıxmaq qorxuludur” hekayəsinin motivləri əsasında rejissor Ənvər Əbluc 1973-cü ildə eyniadlı film çəkmişdir. “Dörd bazar günü” povesti əsasında isə 1975-ci ildə eyniadlı film çəkilmişdir. Filmin ssenarisini H.Abbaszadə rejissor Şamil Mahmudbəyovla birgə işləmişdir.

Lakin nə şeir, nə kino, nə də tərcüməçilik fəaliyyəti H.Abbaszadə yaradıcılığının əsas istiqamət xətti ola bilməmişdir. Onu geniş auditoriyaya tanıdan bədii nəsri olmuşdur. 1950-ci illərin sonlarında nəzmdən nəsrə keçməyə qərar verən H.Abbaszadə müsahibələrinin birində elmi-texniki inqilablar əsrində yaddaşlarda şeiri ilə yox, nəsri ilə qalacağını düşündüyündən bu addımı atdığını vurğulamışdı.

Fikrimizcə, yazıçının nəzmdən nəsrə keçməsini iki amil şərtləndirmişdi. Birincisi, buna səbəb yaradıcı şəxsin özünüifadə şəklidir. Bildiyimiz kimi, nəzm ani duyğuları ifadə etmək üçün

mükəmməl vasitə olduğu halda, nəsr sənətkardan xüsusi istedadla yanaşı, geniş məlumat bazası tələb edir.

İkincisi, sovet dövründə H.Abbaszadə poeziyası ilə ədəbi tənqidin diqqətini çəkə bilməməsi müəllifin bu janrda uğursuzluğuna dəlalət edirdi. Oxucu ilə özü arasında yaratmaq istədiyi körpünü o, şeirlə – nəzmlə qura bilməmişdi.

"General" əsəri nəşr olunandan ədəbi tənqidin diqqətini cəlb etdi. Əsərin "Azərbaycan" jurnalında yayımlanmış ilkin variantı barədə Mir Cəlal və Məmməd Cəfərin fikirləri istər müəllifi, istər oxucuları, istərsə də tənqidçiləri bu əsərə daha diqqətlə yanaşmağa vadar etdi.

Məmməd Cəfər Cəfərov "Ürəkaçan əsərlər, səslər" məqaləsində yazırdı: *"General" romanı ədəbiyyatımıza özünəməxsus fərdi üslubu, ilhamı və yaradıcılıq əməlləri olan istedadlı bir nasirin gəldiyini göstərdi".*[6]

1964-cu ildə ilk povestlər kitabı "Ləpədöyəndə" nəşr olunur. Yazıçıya bədii nəsrin gətirdiyi uğur tezliklə ədəbi tənqidin diqqətini özünə çəkir; bir-birinin ardınca mətbuatda çıxan yazılar onun uğurlu piyarına şərait yaradır. Y.Seyidov, H.Əfəndiyev, M.Rahim, B.Nəbiyev, S.Rəhimov, İ.Şıxlı, M.C.Cəfərov, A.Hüseynov, B.Vahabzadə, S.Rüstəm, K.Abdulla, V.Yusifli, R.Əliyev, Z.Əsgərli, T.Hacıyev, D.Bayramov, H.A.Mansurzadə, T.Məhərrəmova, M.Nərimanoğlu, İ.Tretyakov M.Xolmoqorov, S.Lukyanov, V.Boquslavski, A.Sofranov, Y.Lukin, M.Pleskaçevski, Ləziz Kayumov, Y.Loxviçki məqalələrlə H.Abbaszadə irsinə münasibət bildirmişlər.

Aparılan araşdırmalardan aydın olduğu kimi, H.Abbaszadə yaradıcılığı sovet dövründə ədəbi tənqidin diqqətini cəlb etmiş, hələ sağlığında yazılan məqalələrdə şəxsiyyəti, yaradıcılıq yolu, sənətkarlıq xüsusiyyətləri, yazı üslubu və s. ilə bağlı məqamlara toxunulmuşdur. Lakin yanaşmaların əksəriyyətində onun əsərlərinin ideya-məzmun mahiyyəti, dil-üslub xüsusiyyətləri dərindən

---

[6] Cəfərov, M.Z. Ürəkaçan əsərlər, səslər // Ədəbiyyat və incəsənət. – 1982, 26 noyabr. – s. 7

açılmırdı. Bu məqalələrdə müraciət olunmuş əsərlər həmin dövrün prizmasından tədqiqata cəlb edilirdi.

H.Abbaszadə bədii nəsrinə hərtərəfli və obyektiv baxış müstəqilliyin bərpasından sonrakı dövrdə zəif olsa da, *"görkəmli akademik Tofiq Hacıyev və Vaqif Yusiflinin araşdırmalarında H.Abbaszadənin bədii nəsri ilə bağlı orijinal fikirlərə rast gəlmək mümkündür".*[7]

Nəticə olaraq belə bir qənaətə gəlirik ki, H.Abbaszadə zəngin bədii nəsri, özünəməxsus yaradıcılıq manerası ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yerə malik ədibimizdir. Onun bədii nəsri istər sovet dövründə, istər müstəqillik illərində ədəbiyyatşünaslıq və ədəbi tənqiddə müəyyən yer tutmuşdur. Bədii nəsrinin məhsuldar dövrü XX əsrin 70-80-ci illərinə təsadüf edən H.Abbaszadə yaradıcılığı sovet dövründə sosialist realizminin prinsipləri çərçivəsində təhlilə cəlb edilmişdir. Müstəqillik illərində isə müəyyən qədər diqqətdən kənarda qalan bu irsin ideya-bədii xüsusiyyətlər baxımından yeni ədəbiyyatşünaslıq konsepsiyası baxımından təhlilə ehtiyacı vardır.

**"Hüseyn Abbaszadənin yaradıcılığının mövzu dairəsi, sənətinin bədii-estetik mahiyyəti"** adlı ikinci fəslin **"H.Abbaszadə yaradıcılığında müharibə mövzusu: müharibə və insan"** adlı birinci paraqrafında bəşəriyyətin ən böyük fəlakəti olan müharibə və bu fəlakətin həm səbəbkarı, həm cəfakarı olan insan tədqiqat müstəvisinə gətirilir.

H.Abbaszadə iki müharibənin – Böyük Vətən müharibəsi və Birinci Qarabağ müharibəsinin şahidi olmuşdur.

Müharibədən, həmin dövrün adamlarından, onların əhvali-ruhiyyəsindən yazmaq üçün döyüş şəraitinin, baş verənlərin şahidi olmaq, ən azı bunları dərindən bilmək lazım idi. Ədəbi mövzular cəbhə ilə sıx bağlandıqca yazıçılar xalqın tarixindəki bu ağır, dəhşətli

---

[7] Heydərova, A.E. Hüseyn Abbaszadənin bədii irsinin tədqiqi // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2019. C. 67, № 1. – s. 58

vuruşu daha bədii şəkildə mənalandırır, müharibənin dəhşətinin epik lövhələrdə təqdiminə müvəffəq olurdular.

Müharibə dəhşətlərinin bilavasitə şahidi olan yazıçıların sonradan yaratdıqları bədii əsərlər, onların canlandırdıqları real səhnələr daha inandırıcı və təsirli olurdu. Akif Əliyev bunu xüsusi vurğulayır: *"Yazıçılar müharibənin real gerçəkliyini, onun fəlakətlərini və fədakar sovet adamlarının qələbəsini geniş, epik lövhələrdə əks etdirdilər. Bu işdə də şübhəsiz, müharibə alovlarından keçən yazıçıların əməyi daha səmərəli oldu. Ə.Əbülhəsən, İ.Şıxlı, H.Abbaszadə, S.Qədirzadə, Y.Əzimzadə, B.Bayramov və b. gördükləri, şahidi olduqları hadisələri real cizgilərlə, inandırıcı və təbii boyalarla təcəssüm etdirən maraqlı bədii əsərlər yaratdılar".*[8]

H.Abbaszadə müharibə mövzusunu nəsrə gətirən ilklərdən olmasa da, yaradıcılığının hər dövrü üçün əsas xəttə çevirə bilmişdir. O, müharibəni mənəvi-psixoloji problem kimi, insanlığın faciəsi kimi tədqiqata cəlb edirdi. H.Abbaszadənin qızı İradə Abbaszadənin də dediyi kimi, *"müharibə haqqında yazan atam başqalarından fərqli olaraq, təkcə eşitdiyini deyil, həm də gördüyünü yazırdı. O, müharibənin sadəcə iştirakçısına çevrilməmiş, sözün həqiqi mənasında o illərin qanlı hadisələrinin, orada gördüyü insanların psixologiyasının fəal bir seyrcisi olmuşdur".* [9] Bu amil H.Abbaszadənin Böyük Vətən müharibəsi mövzulu əsərlərinin çoxunu plakatçılıqdan uzaqlaşdırır, oijinallığını və yaşarılılığını şərtləndirir.

"General" romanı, "Leytenant Qiyaszadənin gündəliyindən" (1962-1984), "Onu tanımadılar" (1964), "Şokoladpaylayan qız" (1966); "Uzaqdan gələn qonaq" (1972-1973), "Hardansınız, müsyö Abel?" (1970) povestlərində və çoxsaylı hekayələrində müharibə və insan müxtəlif prizmalardan təqdim edilir.

H.Abbaszadə müharibənin ön cəbhəsini də, arxa cəbhəsini də görmüşdü, hər iki cəbhə insanlarının psixologiyası ona tanış idi.

---

[8] Əliyev, A.S. Ədəbiyyatımıza müasir baxış / A.S.Əliyev. – Bakı: Elm, – 1999. – s. 69

[9] Xatirələrdə yaşayan Hüseyn Abbaszadə // Azadlıq. – 2011, 12 may. – s. 14

Müharibə insanları nə qədər sərtləşdirmişdisə, bir o qədər kövrək, doğma etmişdi. Birinin acısı hamının acısı, birinin sevinci hamının sevinci olurdu.

Yazıçı əsərlərində müharibənin evləri, kəndləri yandırıb yerlə-yeksan etsə də, insan həyatına fiziki və mənəvi zərbə vursa da, mənəviyyata, mədəniyyətə, incəsənətə gücü çatmadığını, mənəvi dəyərlərin qorunub saxlandığını, xalqların mədəniyyətə verdiyi qiyməti, müharibənin insandan aldıqlarını bir-bir nəzərimizdə canlandırmaqla bu itkinin doğurduğu nəticənin, törətdiyi fəsadların real epik təsvirini verir. *"Unutmaq olmaz ki, yaşanan fəlakətlər həmişə insanı bəsləyən və müdrikləşdirən bir cəhətə malikdir. Bir tərəfdən müharibə, insanlara yüksək hədəf üçün canından keçməyi öyrədən qanlı tərbiyə; digər tərəfdən, yaşamağın, nəfəs almağın, insanlara xidmət etməyin, dinc şəraitdə yaşamağın necə mənalı olduğunu göstərən bir həyat təcrübəsidir"*[10].

Nəticə olaraq, H.Abbaszadə müharibəyə təkcə ədəbi mövzu, siyasi olay kimi deyil, psixoloji aspektdə yanaşmışdır. Onun əsərlərində insan və müharibə qarşı-qarşıya dayanır. Üstünlük isə insana, onun humanist hisslərinə verilir.

İkinci fəslin **"H.Abbaszadə yaradıcılığında insanın əxlaqi-mənəvi dəyərlərinə münasibət: mühit və insan"** adlı ikinci paraqrafında mühit və insan, onların qarşılıqlı əlaqəsi, cəmiyyətin özülünü təşkil edən əxlaqi-mənəvi dəyərlərə münasibət məsələsinə toxunulur.

H.Abbaszadə sənətkarlığının özünəməxsusluğu ilkin olaraq təsvir etdiyi hadisənin mahiyyətini qavrayıb sonra onun problem kimi ədəbi müstəviyə çıxarılmasındadır.

Bildiyimiz kimi, insan bu və ya digər dərəcədə xarici aləmdən asılıdır. Tələbatlar insanı davamlı olaraq nəyə isə vadar edir. Bu səbəbdən də insanın bütün əməli fəaliyyəti bu tələbatların ödənilməsinə ünvanlanır. Məhz bu nöqtədə insanın bir növ daxili

---

[10] Uğurlu, A.S. Türk romancısının gözüyle II. Dünya savaşı // Turkish Studies International Periodical for the Languages, Literature and History of Turkish or Turkic, – 2009. Volume 4 /1-II Winter, – p.1761

məni ilə mübarizə başlayır. Yazıçı da əsərlərində bu məqamı – pul, var-dövlət, vəzifə hərisliyini bədii şəkildə ifadə edərək bütün bu amillərə qarşı insan mənəviyyatını qoyur.

H.Abbaszadənin bədii nəsrində mühitin insanla qarşılıqlı əlaqəsi öz ifadəsini 2 şəkildə tapır: sosioloji və mənəvi-psixoloji. Sosioloji aspekt dedikdə, insanın fəaliyyətində, davranışında mühitin rolu, ictimai münasibətlər nəzərdə tutulur. Mənəvi-psixoloji aspekt dedikdə isə insanın daxili aləmi, bu aləmin mühitdə ifadə forması nəzərdə tutulur. Əslində hər iki amil bir-biri ilə qarşılıqlı əlaqədədir.

İctimai strukturun tərkib hissəsi olan mənəvi-əxlaqi dəyərlər milli mentaliteti formalaşdırmağa xidmət etməklə yanaşı, mikro və makromühitin təsiri ilə də formalaşır. Müəyyən bir tarixi dövr ərzində insanın tələbatları nəticəsində qəlibləşən dəyərlər sağlam düşüncəli insan yetişdirməyə istiqamətlənmişdir.

Cəmiyyətdə hər bir fərdin öz vəzifəsi vardır. İnsan kim olmasından asılı olmayaraq, övlad, valideyn, vətəndaş, dost və s. öz üzərinə düşən vəzifəni bilib, məsuliyyətini dərk etsə, onu düzgün şəkildə icra etsə, daha humanist bir cəmiyyətdə yaşamış olarıq. Bu fikir bir yazıçı kimi H.Abbaszadəni də düşündürmüş, əsərlərində ("Ata və oğul", "Bir şaftalı pöhrəsi nədir ki...", "Mənim qəlbim təmizdir", "Siz kimsiniz?", "Təsəlli", "İnciklik", "Xahiş", "Evə kölgə düşür" və s.) bunun xüsusi olaraq bədii təsvirini verməyə çalışmışdır.

Milli-mənəvi keyfiyyətlər olan ata-anaya hörmət, böyüklərə və kiçiklərə qayğı, torpağa, yurd yerinə bağlılıq və təəssübkeşlik, dostluq, ədalətlilik, qonaqpərvərlik və s. kimi keyfiyyətlər onun əsərlərində oxucuya çatdırmaq istədiyi ideyanı təşkil edir. Y.Qarayevin də vurğuladığı kimi, *"İnsan həyatının və əməyinin təkrarsız humanist mənasına, bunun fərdi bəşəri və fitri-insani mahiyyətinə həssaslıq, dinc günlərin də mənəvi-əxlaqi dəyərləri üçün cəbhəçi cavabdehliyi və məsuliyyəti, cəzasız qalmayan günah, özgə ağrısına, yad köynəyinə məhrəmlik və şəriklik mövzusu, vicdan və ədalət hissinin təntənəsi üçün fövri, tərəddüdsüz zaminlik və borc duyğusu! – artıq xatırladığımız bu cizgilər onun hekayə və povestləri*

*üçün hələ cəbhə vaxtından formalaşmış ən səciyyəvi və əxlaqi problemlər hesab oluna bilər".*[11]

Onun yazıçı, vətəndaş olaraq əsas məqsədlərindən biri milli-mənəvi, əxlaqi-mənəvi dəyərlərə malik gənclərin formalaşması, tərbiyə edilməsi idi. Buna görə də gənclərimizin bu ruhda yetişdirilməsinin labüdlüyünü əsərlərində vurğulayırdı. Çünki milli dəyərlərini, keçmişini, tarixini bilməyən gənclik bu dəyərləri qorumaq ixtiyarında deyildir.

İkinci fəslin **"H.Abbaszadə yaradıcılığında insanın ictimai-siyasi və sosial fəaliyyətinin bədii əksi: məişət və insan"** adlı üçüncü paraqrafında insan məişətdə təsvirindəki xüsusiyyətlər, ideya, insanın şəxsiyyət, fərd kimi formalaşmasında əsas rol oynayan ictimai-siyasi və sosial məsələlərin, insanın bu yönümlü fəaliyyətinin təsviri məsələlərinə nəzər salınır.

H.Abbaszadə də bədii nəsrində cəmiyyətdə olan sosial və ictimai-siyasi problemləri təhlil müstəvisinə gətirir. Bədii əsər dövrün aynası rolunu oynayaraq ictimai-siyasi və mədəni-iqtisadi münasibətlərin izlərini özündə daşıyır. Çünki cəmiyyətdə baş vermiş hadisələr, dəyişikliklər bilavasitə insan psixikasında öz əksini taparaq onun əxlaqına da təsir göstərir.

Yazıçı insanı özü ilə qarşılaşdırır, vicdanı ilə üz-üzə qoyur. Bir tərəfdə ittihamçı, digər tərəfdə isə barışçı. İnsanın mənəvi aləminin cəmiyyətin ortodoksal vəziyyəti ilə üst-üstə düşmədiyini göstərir. Yazıçının istər hekayə, istərsə də povest və romanlarının qəhrəmanları həyatın içindən gələn adamlar idi. Bu insanların davranışı, mənəviyyatı, mədəniyyəti doğulub formalaşdığı məişətlə bağlıdır.

60-cı illərdə yazıb-yaradan yazıçıların əksəriyyəti sovet insanını köhnə stereotiplərdən azad edir, şablon həyat tərzinə etiraz edir, sovet əxlaq düşüncəsini bir kənara qoyub insanın intim dünyasının ehtiraslarına, daxili azadlığa meydan verirdilər. Onlar

---

[11] Abbaszadə, H.A. Seçilmiş əsərləri: [3 clddə] / H.A.Abbaszadə. – Bakı: Azərnəşr, – c. 1. – 1983. – s.7

üçün cəmiyyətin təlatümü, ictimai durğunluq yaxud əksinə, oyanış insanın özünə və dünyaya münasibətində özünü göstərirdi. Ədəbiyyatşünas alim, tənqidçi T.Salamoğlunun qeyd etdiyi kimi *"Sovet hökumətinin antimilli ideologiyaya təbliğatı müqayisəgəlməz dərəcədə güclü olduğu üçün milli varlıq uğrunda mübarizə aparanların və bu yolda ölümə gedənlərin qəhrəmanlığı, nəcib, müqəddəs niyyətləri ört-basdır edilib.*[12]

70-80-ci illərdə bu oyanış pik səviyyəyə qalxdı. "Burulğanlar", "Əlibalanın ağır səfəri" romanlarında bunu aydın şəkildə müşahidə etmək olur. Hər iki əsərdə insani hisslər öndə olsa da, hadisələrin inkişafı daha çox sosial-ictimai məsələlərə söykənir.

H.Abbaszadənin 90-cı illərdə yazdığı hekayələr olduqca maraqlıdır. Hekayələrin süjetləri uydurmaçılıqdan uzaq, sadə, həyati, yazıçının həyatda müşahidə etdiyi səciyyəvi yaxşılıqlar və eybəcərliklər onları təmsil edən insanlara həsr olunmuşdur.

Keçid dövrü Azərbaycanının iqtisadi baxımdan durumunun bədii təsviri, maddi çətinliklər, sosial aşınma "Əmanət kitabçası və köhnə xalça", "Arvadına demədi", "Ayaqqabı əhvalatı", "Şahvələdin dərdindən olmazdı" və s. hekayələrində əksini tapmışdır.

H.Abbaszadənin siyasi düşüncələrini daha açıq şəkildə ifadə etdiyi bir digər əsəri "Qayıdanlardan biri" romanıdır. Romanda 37-ci ilin represiyası, insanların şərlənərək ittiham olunması, məhv olmuş talelərdən bəhs edilir. H.Abbaszadə özünün vətəndaş mövqeyini yazıçı tendensiyası ilə birləşdirərək "sapı özümüzdən olan baltalar"ın olduğunu göstərir. Şəxsi ədavət, paxıllıq üstündə neçə-neçə günahsız insanın cəzalanması, ölümü, faciəli taleyi təsvir edilir.

Repressiyanın ayrı-ayrı şəxsləri deyil, onların ailəsinə, nəslinə, yaxınlarına belə mənəvi zərbə vurduğunu yazıçı müxtəlif situasiyalarda oxucuya xatırladır. Təsadüfi deyildir ki, repressiyaya məruz qalmış Seyid Hüseyn və Ümmügülsümün oğlu Oqtay Sadıqzadə bu romanı yüksək qiymətləndirərək yazır: *"Onun sonuncu – "Qayıdanlardan biri" romanı xüsusilə mənə doğmadır. Çünki*

[12] Salamoğlu, T.S. Azərbaycan ədəbiyyatının müasir problemləri / T.S. Salamoğlu. – Bakı: "E.L." NPŞ MMC, – 2014. – s. 129

*romanın qəhrəmanının hissləri, həyatı mənə də tanışdır. Mən də o romanın qəhrəmanı kimi repressiya olunmuşam, qayıdandan sonra isə insanların münasibətini, boz üzlərini görmüşəm. Romanı oxuduqca həyatım gözümün önündə canlanırdı. Başa düşdüm ki, yalnız Hüseyn kimi insanlar repressiya olunmuş insanları dərindən başa düşə bilər. Hamının qaçdığı günahsız insanla dostluq edə, onlara hayan ola bilər".*[13]

Müstəqillik dövrü əsərlərində H.Abbaszadə erməni xislətinin murdarlığına biganə qala bilmir, onlara qarşı nifrətini gizlədə bilmir. Bildiyimiz kimi, sovet dövründə "erməni məsələsi" nəinki işıqlandırılmır, əksinə "xalqlar dostluğu" ideoloji prinsiplərinə uyğun təhlilə cəlb edilirdi. H.Abbaszadə bədii nəsrinin əsas özəlliklərindən biri kimi onun bu prinsipin tələblərindən kənara çıxmasını göstərmək olar. H.Abbaszadənin sovet dövrü bədii nəsrində rast gəlinən və diqqət çəkən məsələlərdən biri də erməni obrazının yaradılmamasıdır. Keçmiş SSRİ-də bütün millətlərdən olan insanların xalqlar dostluğu şüarı altında birləşdiyi, Qafqazda erməni-gürcü-azərbaycanlı üçbucağının "sarsılmazlığı" bir dövrdə belə yazıçı bu mənfur millətin obrazını qələmə almırdı. Müstəqillik əldə etdikdən sonra "erməni problemi" bədii ədəbiyyatın aparıcı mövzusuna çevrildi. H.Abbaszadə də yaradıcılığının son illərində bu məsələ ilə bağlı fikirlərini məhz "Qayıdanlardan biri" romanında ifadə edir. 21 ilə ərsəyə gələn "Qayıdanlardan biri" romanı yazıçının uzun illər həyati müşahidələrinin yekunu olaraq yaradıcılığında "Burulğanlardan"dan sonra dəyərləndirilə bilən bir romandır.

Gətirilən nümunələrdən də yazıçının bütün yaradıcılığı boyu adi məişət qayğıları, sosial və iqtisadi-siyasi problemlərdən uzaq düşə bilmədiyini, insanın daxili aləminin açılmasında, öz fikir və düşüncələrinin təqdimində onlardan priyom kimi istifadə etdiyinin şahidi oluruq. H.Abbaszadənin bədii nəsrində insanın özünü və onu əhatə edən ərtaf mühiti – cəmiyyəti dərk etməsi bədii həllini tapır.

---

[13] Sadıqzadə, O.S. Özümə qardaş sayıram // Ədəbiyyat. – 2007, 23 noyabr. – s. 4

Real insan hisslərinin təsviri onun əsərlərini oxunaqlı edən səbəblərdən biridir. Gətirilən bədii nümunələrdə də müşahidə olunduğu kimi, onun bədii nəsrində bu gün üçün də aktual olan milli-mənəvi və ümumbəşəri dəyərlərə, milli özünüdərk kimi problemlərə həssas münasibət vardır. H.Abbaszadə insanı sosial, siyasi, iqtisadi və mədəni (əxlaqi) problemlər qarşısında qoymaqla və ya onu bu problemlər içində təsvir etməklə insanın daxili "mən"inə nəzər salır. Bu prosesdə psixoloji təsvir və təhlil onun bədii nəsri üçün xarakterik əlamətlərdəndir.[14]

Tədqiqatın III fəsli **"H.Abbaszadə yaradıcılığının bədii-sənətkarlıq xüsusiyyətləri"** adlanır. **"Mövzu seçimi və bədii konflikt"** adlı birinci paraqrafında yazıçının müraciət etdiyi mövzular qruplaşdırılır və bədii konflikt müəyyən edilir. Ümumiyyətlə, mövzu seçimi və bədii konfliktin sənətkar üçün əhəmiyyəti məsələlərinə toxunulur. Eyni zamanda, paraqrafda mövzu seçimi ilə yanaşı, H.Abbaszadənin dil-üslub xüsusiyyətlərinə də diqqət yetirilir.

Mövzu seçimi yazıçının sənətkarlıq xüsusiyyətlərini müəyyən edən əsas amillərdən biridir. *"Əlbəttə, işlənməmiş mövzu azdır, hətta yox dərəcəsindədir. Şablon fabula, trafaret situasiyalar dedikdə söhbət yalnız oxşar mövzuların qələmə alınmasından deyil, bu mövzuların necə işlənməsindən gedir. Şablon o zaman meydana çıxır ki, bu cür mövzular sənətkarlıq cəhətdən, yazıçının həyata və həyat hadisələrinə münasibətindəki fəlsəfilik baxımından sönük işlənsin, əks-təqdirdə aydındır ki, şablondan söz ola bilməz".*[15] Çünki mövzu birbaşa yazıçı müşahidəsi ilə bağlı olmaqla yanaşı, yazıçının duyğu və düşüncələrinin ifadə şəklidir. Əsərin məzmunlu olması yazıçının ən xarakterik həyat həqiqətini görmək və onu bədii şəkildə əks etdirə bilmək qabiliyyətindən çox asılıdır. Həyat hadisələrinə sadiqlik

[14] Heydərova, A.E. Hüseyn Abbaszadə bədii nəsrinin mövzu dairəsi // Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransı, – Bakı: Bakı Mühəndislik Universiteti, – 5-6 may, – 2017, – s. 682-684

[15] Əfəndiyev, E.İ. Tənqid və nəsr (Azərbaycan bədii nəsri tənqiddə (1945-1965) / E.İ.Əfəndiyev. – Bakı: Günəş, – 1999. – s. 57

yaradıcılıq prosesində çox vacibdir. Lakin onu olduğu kimi əks etdirmək bədii ədəbiyyatın vəzifəsi deyildir. Həyat həqiqəti müəllif fantaziyası ilə ətə-qana gəlməsə, maraq doğura bilməz. Yavuz Axundlunun da dediyi kimi, *"Tarixi dövrün düzgün verilməsi üçün tarixi sənədlərdən, faktlardan istifadə etmək zəruridir. Lakin bununla bərabər, yazıçı uydurmasının, yazıçı təxəyyülünün əhəmiyyətini inkar mütləq səhv nəticələrə aparar, sənətkarı tarixi hadisələrin təsvirçisinə çevirə bilər".*[16]

H.Abbaszadə yaradıcılığının əsas məğzlərindən biri bir əsərdə eyni zamanda müxtəlif mətləblərə toxunmasıdır. Yazıçının ustalığı da müxtəlifliyin vəhdətini tutmasında, sintezini yaratmaqda idi.

H.Abbaszadə müraciət etdiyi mövzularda həyata baxışını, dünyagörüşünü, yazıçı mövqeyini oxucusuna çatdıra bilirdi. Bu da onun əsərlərini zamansız edən əsas səbəblərdəndir.

Müharibə mövzusu H.Abbaszadə yaradıcılığında hərtərəfli şəkildə əks edilir. Müharibənin dəhşətli üzündən biri olan əsirlik yazıçını həmişə düşündürmüşdür. Müharibədə əsir düşmək ölümdən betərdir. Bu sınaqdan üzüağ, mərd çıxan da olurdu, dözməyib özünü öldürən də olurdu, vətənə xainlik edən də olurdu.

H.Abbaszadənin bu mövzuya həssaslıqla yanaşması şəxsi təcrübəsindən qaynaqlanır. Böyük Vətən müharibəsinin ən ağır töhməti əsirlik idi. Sovet əsgəri əsir düşə bilməzdi, bu, ali baş komandanın – Stalinin və sovet ideologiyasının yazılmamış qanunu idi. Bu səbəbdəndir ki, müharibə qurtarandan sonra da əsirlikdə olanların çoxu onları geri qayıdan kimi gözləyən aqibəti – həbs, sorğu-sual, qınaq – bildiklərindən geri qayıtmır, yad ölkələrdə qalıb ömürlərini başa vururdular. H.Abbaszadə bu mövzu ilə bağlı "Hardansınız, müsyö Abel?", "Qaraçuxa yatanda", "Kənd evində söhbət" və s. əsərlər yazmışdır.

İdeologiyanın ön planda olması, yazıçıların sərbəst şəkildə müharibə ilə bağlı əsl fikirlərini və yaxud real həyatda olan

---

[16] Axundlu, Y.İ. Tarixi roman yeni mərhələdə (1980-1990) / Y.İ.Axundlu. – Bakı: Maarif, – 1998. – s. 17

məhrumiyyətləri təsvir etməkdə əl-qollarının bağlı olması sovet dövrü əsərlərinin birmənalılığına səbəb olurdu. H.Abbaszadə bədii nəsri isə bu monotonluqdan uzaqdır. Professor Əziz Mirəhmədov "Nəsrin şeiriyyəti" adlı məqaləsində yazır: *"Ədəbi əsərlərin dəyəri heç bir zaman onun yalnız mövzusu, təsvir obyekti ilə, yaxud surətlərin peşəsi, mənəvi-əxlaqi səviyyəsi, təhsili, cəmiyyətdə tutduğu mövqe ilə müəyyənləşmir. Əsl məsələ seçilən mövzunun, təsvir obyektinin hansı bədii qayəyə xidmət eləməsində, əsərin ideya-estetik pafosunda, onun oxucuya aşıladığı fikir və hissin nə dərəcədə müasir, faydalı, əhəmiyyətli, nə dərəcədə səmimi, inandırıcı, təsirli olmasındadır. Əsərin pafosunu, ideya-estetik dəyərini isə yazıçı mövqeyi, yazıçının həyata baxışının, bədii konsepsiyasının mahiyyəti təyin edir. Müəllifin nə dərəcədə mütərəqqi, insani, nəcib məqsədlər izlədiyi, məqsədinə nə dərəcədə çatdığı burada əsas meyardır".*[17]

90-cı illər həyatın bütün sahələrinə olduğu kimi, ədəbiyyata da yeni bir mövzu gətirdi. Taleyüklü Qarabağ məsələsi saysız-hesabsız nəsr və nəzm nümunələri yaratdı. Yandırılmış evlər, sahibsiz çöllər, tüstüsüz damlar, köçkün ailələr, qaçqınlar ədəbiyyatın mövzusuna çevrildi. Vətəndaş təəssübkeşliyi müharibə iştirakçısı H.Abbaszadəyə daha dəhşətli bir faciənin – Birinci Qarabağ savaşının ağrısını yaşadır. Yaradıcılığının son illərinə təsadüf edən erməni vandalizminə yazıçı biganə qala bilmir, bəzi hekayələrində, publisistik yazılarında yazıçı və vətəndaş kimi münasibətini bildirirdi.

Birinci Qarabağ müharibəsi və onun acı nəticələri ilə bağlı hadisələrə o, ömrünün son dəmində geniş şəkildə olmasa da, bir neçə hekayəsində toxunmuşdu. Bu hekayələrdə yazıçı daha çox müharibənin törətdiyi sosial faciələri, müharibədən sonrakı keçid dövrünü təsvir etmişdir. Belə hekayələr içərisində "Ağlar gedər" (1993) xüsusilə diqqəti cəlb edir.

H.Abbaszadə yaradıcılığının bir səciyyəvi xüsusiyyəti də müasirliyində idi. O, təkcə insanları deyil, təbiəti də sevirdi. Təbiətin

---

[17] Mirəhmədov, Ə.M. Nəsrin şeiriyyəti // Azərbaycan, – Bakı: – 1979. № 4, – s. 190

bəzən qəddar düşməninə çevrilən insan onun gözündə ən aşağı varlıq idi. Onun bir çox hekayələrində heyvanları qorumağın zəruriliyi təbliğ olunur. Maşınla pişiyi əzib keçən sürücü ("Qatil") insanlıqdan uzaqdırsa, yaralı pişiyə kömək edən Afəti ("Xahiş") lağa qoymaq da bir o qədər canilikdir. Eyni humanist motiv "Dələ" povestində də özünü göstərir. V.Yusifli yazır: *"Hüseyn Abbaszadə müasir yazıçıdır və mən bu kəlməni işlədərkən müasirliyi təkcə müasir mövzuda yazmaq kimi dərk eləmirəm. Müasirliyi onun təsvir etdiyi hadisələrə məhz yeni düşüncə tərzi ilə yanaşmasında, gördüyünü, müşahidə etdiyini və qələmə aldığını yüksək sənətkarlıqla canlandırdığında görürəm. Elə bir əsər ki, təkcə konkret bir dövrün əhval-ruhiyyəsini, ictimai, yaxud mənəvi mənzərəsini əks etdirməklə məhdudlaşmasın. Bu gün də həmin əsərləri oxuyanda bu gün üçün nəsə tapaq".*[18]

H.Abbaszadənin bədii nəsrinin ideya-estetik dəyəri əxlaqi və sosial ümumiləşdirmələrdir. O, cəmiyyətdəki mütərəqqi meyilləri tərənnüm etməklə yanaşı, yaltaqlığı, dələduzluğu tənqid etməkdən, şəxsi fikirlərini açıq müstəviyə gətirməkdən çəkinmirdi.

H.Abbaszadə yazdığı əsərlərin mövzusu ilə yanaşı, həcmindən asılı olmayaraq ayrı-ayrı epizodlar, fəsillər arasındakı məntiqi ardıcıllıqı elə qururdu ki, birbaşa əsərin oxucu tərəfindən asanlıqla qavranılmasına gətirib çıxarırdı.

H.Abbaszadənin bədii nəsri müxtəlif mövzuları özündə birləşdirir. Mövzu və quruluşca bir-birini təkrarlamayan əsərlərində insanı, cəmiyyəti düşündürən vacib problemlərə toxulunur. Onun bədii nəsrində bədii konfliktdən yazıçı məramını ortaya qoymaq üçün ustalıqla istifadə edilir. H.Abbaszadə bədii konflikti təkcə insanlar və ya hadisələr arasında yox, insanın düşüncələri, hissləri, daxili dünyası arasında təqdim edir, özünəməxsus yaradıcılıq manerası ilə bədii nəsrində qoyduğu problemlərin bədii çözümləməsini göstərirdi.

---

[18] Yusifli, V.Ə. Bizim Hüseyn müəllim // Ədəbiyyat. – 2007, 23 noyabr. – s. 6

Üçüncü fəslin **"Bədii obraz və xarakter problemi"** adlı ikinci paraqrafında yazıçının əsrlərindəki obrazlar qaleriyası, obrazların xarakter səviyyəsinə qaldırılması bacarığı təhlil edilir.

Bədii obraz və xarakter bədii əsərin əsas komponentlərindəndir. Bu səbəbdən də bu problemin öyrənilməsi həmişə aktual olmuşdur. *"Bədii obraz gerçəkliyi əks etdirməklə onu estetik ideal və yazıçı məramı baxımından ümumiləşdirməyin bir üsuludur".*[19]

Bədii obraz yaratmaq çətin prosesdir. Burada sənətkardan müşahidə qabiliyyəti, bədii ümumiləşdirmə tələb olunur. H.Abbaszadə yaratdığı bədii obrazlar vasitəsilə ictimai həyatı, təbiəti, insanın daxili aləmini, psixologiyasını, həyata baxışını və s. açmağa çalışmışdır. Onun əsərlərində ərsəyə gətirdiyi hər bir obrazda qəhrəmanın iç aləmi, ahəngdarlığı təsvir edilir. Əsər boyu qəhrəman eyni qalmır. Burada qəhrəmanın və ya əsas obrazın iç səsi, xarici aləmlə toqquşmasının təsviri ilə onun xarakter özünəməxsusluğu vurğulanır. Hər bir obraz öz xarakterinə uyğun düşünür, danışır və hərəkət edir. Biz onun yaratdığı bədii obrazlara nəzər saldıqda müəllif təfəkkürünü və ideyasını açıqca müəyyən edirik.

O, əsərlərində müxtəlif tip obazlar yaratmışdır və bu obrazlar mənfi və ya müsbət olması ilə fərqlənmir. Yazıçı insanın içində xeyirin və şərin eyni dərəcədə yer aldığını duyur. Bunlardan hansının üstün gəlməsi isə insanın əməli fəaliyyətindən asılıdır. Akif Hüseynovun da vurğuladığı kimi, "*H.Abbaszadədə sərrast analitik keyfiyyət var idi, bu da ona həyatdakı hadisələri, insanların psixologiyasını düzgün qiymətləndirib təsvir etməyə kömək edirdi. Onun əsərlərinin qayəsi yaxşılığın, yaxşı adamların hələ tükənmədiyini, xeyrin şər üzərində qələbəsinə inamıdır. Bu səbəbdən də yaratdığı obrazlar əsasən pozitiv duyğulara köklənmiş olurlar. Onun əsərlərində "humanist mündəricə"*[20]qüvvətli səslənmişdir.

---

[19] Qəhrəmanlı, N.Ə. Ədəbiyyat nəzəriyyəsi / Qəhrəmanlı, N.Ə. – Bakı: BQU, – 2008. – s. 7

[20] Hüseynov, A.M. Nəsr və zaman / A.M. Hüseynov. – Bakı: Yazıçı, – 1980. –s. 28

Sovet dövrü ədəbiyyatı mövcud ideologiyaya əsaslandığından bu dövrün obrazlarını tam şəkildə sərbəst və müstəqil adlandırmaq olmur. Çünki müstəqil, buxovlardan, diqtələrdən azad bir cəmiyyətdə müasir, azad xarakterlər yaratmaq olar. Bu obrazlar ictimai-siyasi, sosial ziddiyyətlərdən də kənarda deyildir.

Bildiyimiz kimi, obrazların daxili aləminin açılmasında müəllif təhkiyəsi aparıcıdır. H.Abbaszadənin təhkiyəsi obrazların daxili aləmlərinin açılmasında, onların əxlaqi-mənəvi dərinliyini dərk etməkdə oxucuya kömək edir. Əsərlərlə tanışlıq zamanı müəllif təhkiyəsi istər-istəməz özünü ön planda göstərir. Şəxsiyyətin təsviri onun yaradıcılığında aparıcıdır, lakin bu təsvir pafosa çevrilməmişdir. Onun əsərləri insan, onun məhrəmi, arzu və seçimlərinə humanist yanaşması, haqsızlığa nifrət etməsi ilə seçilir.

H.Abbaszadə bilirdi ki, obrazın özünəməxsusluğunu şərtləndirən əsas əlamətlərdən biri də millilikdir. Sovet dövrü ədəbiyyatında açıq şəkildə millilik axtarmaq düzgün olmasa da, müxtəlif priyomlarsan istifadə edərək sənətkarların yazdıqları hər bir bədii nümunədə buna nail olmağa can atmalarını da inkar etmək olmaz. Çünki *"obraz özünün fikri, əqidə və inamı ilə inkişaf edir. Yazıçı bu inkişafı izləyir, ona istiqamət verir, münasibət bildirir"*.[21]

Vizit kartı hesab olunan "General" romanında yazıçı ilk dəfə "azərbaycanlı sovet sərkərdəsinin bədii surətini" (B.Nəbiyev) yaratmışdır. Xarakter milli psixologiyanı, milli cəhətləri dolğun təcəssüm etdirir. Xalqın adət-ənənəsini, məişətini, əxlaqını, tarixini, yaşam yolunu bilmədən canlı obraz – xarakter yaratmaq asan deyil.[22]

O, hekayələrindən tutmuş romanlarınadək yaratdığı hər bir obrazın daxili aləmini təfərrüatı ilə açmağa çalışmışdır. İnsanın cəmiyyətdə mövqeyi, mənafeyini quru ideallara qurban verməsi, ictimai qınağın tərbiyəedici rolu və s. onun əsərlərinin məzmununu

---

[21] Hacıyev, A.M. Ədəbiyyatşünaslığın əsasları: ali məktəblərin filologiya fakültələri üçün dərslik / A.M.Hacıyev. – Bakı: Zaman, – 1999. – s. 129

[22] Гейдарова, А.Э. Проблема художественного образа и характера в романе Гусейна Аббасзаде «Генерал» // – Калининград: «Балтийский гуманитарный журнал» НП ОДНО «Институт направленного профессионального образования» (Тольятти), – 2020. № 1, – с. 190-194

real zəminə söykədir, dövrün xüsusiyyətini obrazda yaşatmaq, obrazın xarakterini ən xırda detalda verə bilmək ustalığını yazıçının yaradıcılıq konsepsiyasının əsas xəttini təşkil edir. *"Məlumdur ki, həqiqi müəllif mövqeyi bütünlükdə süjetin, hadisə və xarakterin bədii-fəlsəfi məntiqi ilə ifadə olunan tendesiyadır".*[23]

Nəticə olaraq belə bir qənaətə gəlirik ki, tarixi baxış, dövrün tendensiyası və bu tendensiyadan irəli gələn sosial-siyasi baxışlar ənənəvi olaraq əksər sovet yazıçılarında olduğu kimi, təbii ki, H.Abbaszadə yaradıcılığında da özünü göstərməyə bilməzdi. Lakin H.Abbaszadə yaradıcılığını fərqləndirən xüsusiyyət kimi, yazıçının bədii nəsrində mövqeyini açıq şəkildə bildirməsi, hətta sovet dövründə yazdığı əsərlərdə, yaratdığı obrazlarda milliliyi, azərbaycançılığı ifadə edə bilməsini qeyd etmək olar.[24]

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat işindən əldə olunan nəticə və qənaətlər öz əksini tapmış və ümumiləşdirilmişdir:

– Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan H. Abbaszadə əsərlərində həyatın əksini bədii detallarla verməyə müvəffəq olmuşdur.

– H.Abbaszadənin şəxsiyyət kimi, yazıçı kimi formalaşmasında yaşadığı dövrün, mühitin rolu danılmazdır. Həməsrləri ilə olan münasibəti, əməli fəaliyyəti onun insani keyfiyyətlərinin üzə çıxması üçün zəmin rolu oynamışdır.

– Bu münasibətlər onun bədii nəsrinə də təsirsiz ötüşməyib. H.Abbaszadənin şəxsi həyat materialı, bioqrafiyası öyrənilərək bədii nəsrindəki avtobioqrafiq məqamlar müəyyən edildi.

– H.Abbaszadənin həyatı iki dövrə təsadüf etdiyindən yaradıcılığı da iki mərhələni əhatə edir. Bu baxımdan onun bədii nəsri həm sovet dövrü Azərbaycan ədəbiyyatı, həm də müstəqillik dövrü Azərbaycan ədəbiyyatı baxımından tədqiqata cəlb edildi.

---

[23] Qarayev, Y.V. Poeziya və nəsr / Y.V.Qarayev, red., M.Cəfər. – Bakı: Yazıçı, – 1979. – s. 181

[24] Heydərova, A.E. Hüseyn Abbaszadənin bədii nəsrində azərbaycançılıq ideologiyası // Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu Beynəlxalq elmi konfransı, – Sumqayıt: SDU, – 04-05 dekabr, – 2018, – s. 476-478

Dissertasiyada hər iki mərhələnin xüsusiyyətləri nəzərə alınmaqla H.Abbaszadənin bədii nəsrinin özünəməxsus xüsusiyyətləri müəyyənləşdirildi.

– H.Abbaszadə bədii nəsrinin böyük bir qismi sovet dövrünü əhatə etdiyindən onun yaradıcılığına maraq bu dövrdə daha çox olmuşdur. Yaradıcılığının məhsuldar dövrü sovet dövrünə təsadüf edən yazıçının yaradıcılığında tarixi baxış, dövrün tendensiyası və bu tendensiyadan irəli gələn sosial-siyasi baxışları aydın şəkildə görmək olur. Sovet dövrü Azərbaycan ədəbiyyatının digər nümayəndələri kimi, o da dövrün tələblərindən tam olaraq qaça bilməmişdir. Xüsusilə, yaradıcılığının ilk illərində yazdığı əsərlərdə bu özünü aydın şəkildə göstərir. Lakin Stalin rejiminin süqutu ilə bağlı yaranmış müəyyən sərbəstlik, 60-cı illərdə ədəbiyyata gələn yeni ab-hava, 70-ci illərdən başlayaraq milli düşüncənin irəliləyən xətt üzrə inkişafının H.Abbaszadənin bədii nəsrindəki əksi onun yaradıcılığına yeni istiqamət qazandırdı.

– Sovet dövrü sosialist realizmi prinsipinə əsaslandığından ədəbiyyatşünaslıq və ədəbi tənqiddə H.Abbaszadənin bədii nəsri birtərəfli qiymətləndirilmişdir. Buna görə də tədqiqatda yazıçının həmin dövrdə yazdığı bədii nəsr nümunələrini də ideoloji qüsur və nöqsanlardan doğan formalizmdən uzaq şəkildə, müstəqillik illərinin meyarlarına uyğun təhlilə cəlb edildi.

– Müstəqilliyimizin bərpasından sonrakı dövr yazıçının yaradıcılığı üçün yeni bir mərhələ idi. Çünki bu dövr özü ilə yeni mövzulara oxucu marağı ilə yanaşı, tənqidçi sözü, tənqidçi fikri tələb edirdi. İstər dövri mətbuat, istərsə də ədəbi tənqid yeni ab-hava, yeni polemikaya ehtiyac duyurdu. H.Abbaszadə kimi artıq formalaşmış sənətkarlar üçün mövzu və məzmun yeniliyi, "yeni obraz", "yeni intellekt" yaratmaq çətin olsa da, fərdi sənətkar təxəyyülü ona tutduğu yoldan, ədəbiyyat aləmindən uzaqlaşmağa, yeni məzmunlu əsər ortaya qoymağa mane olmurdu.

– H.Abbaszadənin bədii nəsri müxtəlif mövzuları özündə cəmləşdirsə də, müharibə mövzusu onun bədii nəsrində əsas yer tutur. Onun əsərlərində müharibə yalnız dağıntı, talan, itki kimi deyil, mərdlik, birlik, dostluq, humanistlik baxımından təsvir edilir. Biz

onun əsərlərində Böyük Vətən və Birinci Qarabağ müharibələrinin doğurduğu faciənin bədii əksini görürük. Yazıçının bədii nəsrinin əsasını təşkil edən vətən sevgisi, vətəndaş mövqeyi çağdaş müstəvidə təhlil müstəvisinə gətirilmişdir. Bədii nəsrinin əsas xəttini təşkil edən müharibə mövzusuna H.Abbaszadə yaradıcılığında fərqli rakursdan yanaşılır. H.Abbaszadə müharibənin canlı şahidi kimi, ön və arxa cəbhə insanının daxili təlatümünü, müharibənin od-alovunu, ruhi, mənəvi dinamizmini özünə xas üslubda verə bilmişdir. Onun çoxlu sayda roman, povest və hekayələrində avtobioqrafik məqamlar hadisələrin real təsvirinə geniş imkan verir.

– H.Abbaszadə bədii nəsri mövzu koloriti etibarilə olduqca zəngin və maraqlıdır. Yazıçı hekayə, povest və romanlarında daha çox müasir həyata nəzər salır, hadisələrə bədii təfəkkürün prizmasından yanaşmaqla yanaşı, çox real, boyasız təsvirə yer ayırır. Xüsusilə cəmiyyətin sosial problemləri, insan xarakterindəki təzad, karyerizm, xudpəsəndliyin təqdimi əsərlərin və yazıçı qayəsinin başlıca istiqamətini təşkil edir. Yazıçı cəmiyyəti maraqlandıran mühüm sosial-siyasi, ictimai-siyasi məsələləri bədii şəkildə təcəssüm etdirərək cəmiyyəti məhvə aparan bürokratizmi, rüşvətxorluğu, ədalətsizliyi açıq şəkildə əsərlərində təqdim edir. H.Abbaszadə müşahidəçilik bacarığı və hadisələrə dərindən nüfuz etməsi ilə oxucuya bəzən əhəmiyyətsiz, kiçik görünən hadisəni həyati problemlərlə əlaqələndirərək dərin məna və məzmun verə bilir ki, bu da onun əsərlərini müasir həyatla əlaqələndirir. Təsadüfi deyil ki, onun müraciət etdiyi mövzular yazıçı tendensiyası ilə oxucu mühakiməsi arasında sintez yaradan mövzulardır. Bu mövzularda əxlaqi-mənəvi dəyərlər, ailə, qadın azadlığı, müasirlik, vətənpərvərlik, bəşərilik və s. yazıçının oxucu ilə təmas yarada bildiyi xüsusiyyətlərdir.

– Hekayələrindən tutmuş romanlarınadək hər bir əsərində həyati faktlara söykənən yazıçı əsirliyi, represiyanı, xəyanətin, ölümün, məişət mövzularının, qocalığın və s. bəşər tarixi boyu mövcud olduğu qənaətini və insanlığın bundan qaça bilmədiyini sadə üslubu ilə verə bilmişdir. Bu mənada H.Abbaszadə bədii nəsrinin ana xəttini insan konsepsiyası təşkil edir. O, əsərlərində insana birxətli

yanaşmır. İnsanı zaman, cəmiyyət, məkan daxilində təhlil müstəvisinə gətirir. Bütün bunlar yazıçının dərin müşahidə və analitik təhlil qabiliyyətinə malik olduğunu göstərir.

– Onun bədii nəsrində insan, onun mənəvi dünyası, mənəvi-əxlaqi axtarışları, hadisələr lirik-psixoloji baxımdan bədii həllini tapır. Onun bədii nəsrində insan müharibə, məişət, mühit aspektində təhlilə cəlb edilmiş, mənəvi-psixoloji, sosial-siyasi, iqtisadi problemlərin bədii nəsrində həll olunması mexanizmi təsvir edilmişdir.

– Gələcəyə baxış, davamlı insan inkişafı, qloballaşma, multikultural dəyərlər onun yaradıcılığında insanın mənəvi-əxlaqi kamilliyi, bədii-estetik dərkin sosial mövqeyindən, psixoloji durumundan asılı olaraq mühitlə uyğunlaşdırılır. Tədqiqat işində H.Abbaszadənin bədii nəsrində istər sovet, istər müstəqillik dövründə milli insan, milli yaddaş probleminə toxunması təhlil müstəvisinə gətirilir, millilik, milli-mənəvi dəyərlərin təcəssümü müəyyənləşdirilir.

– Bu prinsipi H.Abbaszadə yaratdığı obraz və surətlərdə də davam etdirir. Azərbaycan sovet ədəbiyyatında xalqlar dostluğu ideyasının təbliğ olunduğu dövrdə belə erməni obrazı yaratmaması təsadüfi deyildir.

– Azərbaycan ədəbiyyatında sərkərdə Həzi Aslanov obrazının dolğun təcəssümü, vətənpərvər döyüşçü, sərkərdə obrazı kimi yaradılması yazıçının milli ideologiyaya, milli-mental dəyərlərə sədaqəti və sovet dövründə belə milli qəhrəman obrazını yarada bilmək məharətini göstərir.

– H.Abbaszadə yaradıcılığının səciyyəvi xüsusiyyətlərindən biri də əsərlərinin sənətkarlıq xüsusiyyətləridir. O hansı janrda və məzmunda yazmasından asılı olmayaraq, bədii dilin sadəliyi, axıcılığı, rəvanlığı tələbini unutmur, yersiz mətləblərdən uzaqlaşır, bir sözlə, oxucunu intizarda qoymur. O, oxucuya əsərin qayə və məqsədini birbaşa söyləmir. Onu düşündürərək bir qənaətə gəlməsinə şərait yaradır. Bədii dilin priyomlarından ustalıqla istifadə edən yazıçı xalq yaradıcılığından qaynaqlanmışdır. Onun əsərlərində atalar sözləri, məsəllər, əfsanə və rəvayətlərdən istifadə fikrin

açılmasına, ideyaya xidmət edir. Canlı danışıq dilinin nümunələri əsərlərinin dilinə bir emosionallıq gətirmiş, təsir və təlqin gücünü artırmışdır.

Göründüyü kimi, müxtəlif mövzuları özündə birləşdirən H.Abbaszadənin bədii nəsri mövzu və quruluşca bir-birini təkrarlamayaraq standart karakter daşımır. Bitkin forma xüsusiyyətlərinə malik bədii əsərlərdə dil və üslub sadəliyi, aydınlığı aparıcıdır.

**Dissertasiyanın əsas elmi-nəzəri müddəaları aşağıdakı elmi məqalələr və tezislərdə öz əksini tapmışdır:**

1. Тема Великой Отечественной войны в прозе Гусейна Аббасзаде // – Махачкала: Дагестанский Государственный Университет, научный журнал «Вопросы Тюркологии», – 2016. №11, – с. 85-87.
2. Hüseyn Abbaszadənin bədii nəsrində insanın sosial fəaliyyəti: məişət və insan ("Meynə" hekayəsi əsasında) // "Azərbaycanşünaslığın aktual problemləri" VIII beynəlxalq elmi konfransının materialları, – Bakı: Bakı Slavyan Universiteti, – 4-5 may, – 2017, – s. 232-233.
3. Hüseyn Abbaszadə bədii nəsrinin mövzu dairəsi // Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransının materialları, – Bakı: Bakı Mühəndislik Universiteti, – 5-6 may, – 2017, – s. 682-684.
4. Hüseyn Abbaszadənin bədii nəsrində sənətkarlıq və ədəbi dil məsələləri ("Taqqılbab" və "Büllur mürəkkəbqabı və bənövşəyi Jiquli" hekayələri əsasında) // III Beynəlxalq Həmzə Nigari Türk Dünyası mədəni irsi simpoziumu materialları, – Şamaxı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, – 17-18 may, – 2017, – s. 452-456.
5. Конфликт человека и среды в повести Гусейна Аббасзаде «Просьба» // – Украина: Днепропетровського Национального Университета имени Олеся Гончара научный журнал «Литература в контексти культуры», – 2017. №28, – с. s.62-67.
6. Hüseyn Abbaszadənin bədii nəsrində əxlaqi-mənəvi dəyərlər ("Təsəlli" və "Feyzi müəllim" hekayələri əsasında) // – Bakı: AMEA

M.Füzuli adına Əlyazmalar İnstitutu, “Filologiya məsələləri” jurnalı, – 2017. №17, – s. 342-347.

7. Müharibə və insan taleyi (“Uzaqdan gələn qonaq” povesti əsasında) // – Bakı: ADPU-nun Xəbərləri, – 2017. №4, – s. 74-80.

8. Hüseyn Abbaszadə bədii nəsrində vətənpərvərlik (“Siqnal”, “Naxışlar”, “O, uzaqdan gəlmişdi”, “Rəfiqə” hekayələri əsasında) // “Azərbaycanşünaslığın aktual problemləri” IX Beynəlxalq elmi konfransının materialları, – Bakı: Bakı Slavyan Universiteti, – 4-5 may, – 2018, – s. 234-236.

9. Hüseyn Abbaszadənin “Rəfiqə” hekayəsində qadın azadlığı problemi // Gənc tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları, – Bakı: Bakı Mühəndislik Universiteti, – 27-28 aprel, – 2018, – s. 1221-1224.

10. Hüseyn Abbaszadə bədii nəsrində azərbaycançılıq ideologiyası // “Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu” Beynəlxalq elmi konfransının materialları, – Bakı: Sumqayıt Dövlət Univetsiteti, – 04-05 dekabr, – 2018, – s. 476-478.

11. Hüseyn Abbaszadə bədii nəsrində hekayə janrı (əxlaqi-mənəvi dəyərlər konteksində) // – Bakı: Bakı Avrasiya Universiteti “Sivilizasiya” jurnalı, – 2012. №4, – s. 172-179.

12. Hüseyn Abbaszadənin yaradıcılığında memuar janrı // Doktorantların və Gənc Tədqiqatçıların XXII Respublika Elmi Konfransının materialları, – Bakı: Azərbaycan Dövlət Pedaqoji Univetsiteti, – 22-23 noyabr, – 2018, – s. s.152-155.

13. Hüseyn Abbaszadə bədii nəsrində satira və yumor (satirik hekayələri əsasında) // 5-ci Beynəlxalq Sosial Elmlər Konfransı materialları, – Bakı: AL FARABI, – 1-4 avqust, – 2019, – s. 109-113.

14. Hüseyn Abbaszadənin bədii irsinin tədqiqi // – Bakı: ADPU-nun Xəbərləri, – 2019. №1, – s. 47-62.

15. Hüseyn Abbaszadənin povestlərində müasirlik (“Qaradağ əhvalatı”, “Ləpədöyəndə” və “Mansur” povestləri əsasında) // – Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, – 2019. №52, – s. 259-266.

16. Hüseyn Abbaszadənin bədii nəsrində ideya və mövzu problemi (“Burulğanlar”, “Əlibalanın ağır səfəri” romanları əsasında) // – Bakı: Azərbaycan Universiteti “İpək yolu” jurnalı, – 2019. №4, – s. 80-88.

17. Hüseyn Abbaszadənin həyatı və şəxsiyyəti // – Bakı: BDU-nun “Dil və Ədəbiyyat” Beynəlxalq elmi-nəzəri jurnalı, – 2019. №3, – s. 210-213.

18. The problem of captivity in the story “Where are you from, monsieur Abel?” // World Science: problems and innovations. Сборник статей XXXVIII международной научно-практической конференции, – Москва: МЦНС, – 25 декабр, – 2019, – с. 210-213.

19. Проблема художественного образа и характера в романе Гусейна Аббасзаде «Генерал» // – Калининград: «Балтийский гуманитарный журнал» НП ОДНО «Институт направленного профессионального образования» (Тольятти), – 2020. № 1, – с. 190-194.

20. Hüseyn Abbaszadənin “Mansur” povestində “ölümcül qadın” // – Naxçıvan: AMEA Naxçıvan bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun “Axtarışlar” (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq) jurnalı, – 2020. № 4 (38) c. 13, – s. 17-23.

Dissertasiyanın müdafiəsi 26 aprel 2022-ci il tarixində saat 10[00] Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 mart 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:  02.03.2022

Kağızın formatı: 60*84/1/16

Həcm: 50191

Tiraj: 100 nüsxə